**1.** Silindrin ox kəsiyi tərəfləri $AB = 12$ və $AD = 10$ olan düzbucaqlıdır. Bu silindrin həcmini hesablayın $(\pi = 3)$




*(6 aprel 2025, DİM)*

**2.** Radiusu 3 sm olan kürənin həcmini hesablayın.

A) $36\pi$ sm$^3$ B) $54\pi$ sm$^3$ C) $45\pi$ sm$^3$
D) $12\pi$ sm$^3$ E) $20\pi$ sm$^3$

*(2 mart 2025, DİM)*

**3.** Şirniyyat mağazası nümayiş üçün tort maketi hazırlayır. Bunun üçün silindr formalı üç qutu üst-üstə qoyularaq yapışdırılmış və şəkildəki formanı almışdır. Silindrlərin oturacaqlarının radiusları 4:2:1 nisbətində, hündürlükləri isə ortadakı silindrin oturacağının radiusuna bərabərdir. Maketin həcmi $5250\pi$ olarsa, maketin hündürlüyünü tapın.



*(14 aprel 2024, DİM)*

**4.** Kürənin radiusunu necə dəyişmək lazımdır ki, həcmi 8 dəfə artsın?

A) 4 dəfə artırmaq B) 2 dəfə azaltmaq
C) $\sqrt[3]{2}$ dəfə artırmaq D) 2 dəfə artırmaq
E) $\sqrt[3]{2}$ dəfə azaltmaq

*(10 mart 2024, DİM)*

**5.** Ox kəsiyi kvadrat olan silindrin həcmi $54\pi$ sm$^3$ olarsa, hündürlüyünü tapın.

*(3 mart 2024, DİM)*

**6.** Oturacağının sahəsi $4\pi$ olan silindrin ox kəsiyi kvadratdır. Silindrin ox kəsiyinin sahəsini tapın.

*(2 aprel 2023, DİM)*

**7.** Silindrin oturacağındakı dairənin diametri 16, hündürlüyü 8 olarsa, həcmini tapın.

A) $256\pi$ B) $64\pi$ C) $32\pi$
D) $128\pi$ E) $512\pi$

*(12 mart 2023, DİM)*

**8.** Tərəfi 6 olan bərabərtərəfli üçbucağın bir tərəfi ətrafında fırlanmasından alınan cismin həcmini tapın.

*(5 mart 2023, DİM)*

**9.** Konusun doğuranı 6 sm olub oturacaq müstəvisi ilə 60°-li bucaq əmələ gətirir. Konusun həcmini tapın.

*(3 aprel 2022, DİM)*

**10.** Katetləri 4 sm olan düzbucaqlı bərabəryanlı üçbucağın kateti ətrafında fırlanmasından alınan fiqurun yan səthinin sahəsini tapın.

*(13 mart 2022, DİM)*

**11.** Radiusu $R = 15$ sm olan yarımkürə formasındakı qabın içərisinə müəyyən miqdar su tökdükdə suyun səthində radiusu $r = 9$ sm olan dairə yaranır. Qabın su ilə dolu hisssinin $h$ hündürlüyünü tapın.




*(12 mart 2022, DİM)*

**12.** Silindrin yan səthinin sahəsi $30\pi$ olarsa, silindrin ox kəsiyinin sahəsini tapın.

*(6 mart 2022, DİM)*

**13.** Konusun doğuranı 10 sm, ox kəsiyinin təpədəki bucağı $60°$-dir. Konusun yan səthinin sahəsini tapın.

*(5 mart 2022, DİM)*

Düzgün cavablar

1 (900) 2A 3 (30) 4D 5 (6) 6 (16) 7E

8 ($54\pi$) 9 ($9\sqrt{3}\pi$) 10 ($16\sqrt{2}\pi$) 11 (3)

12 (30) 13 ($50\pi$)